# QARABAĞ AZƏRBAYCANDIR!

## YAP 30 ildə zəngin və şərəfli inkişaf yolu keçib!

10

Səs
№ 193 (6634) 21 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik



## Zəfər təntənəsini yaşadan 44 gün!



5

# Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsi!



2

## Yeni Azərbaycan Partiyası: 30 İL DÖVLƏTÇİLİK UĞRUNDA



8

## Payız turizminin üstünlükləri nədir?



13

## "Sülh üçün ilk növbədə sərhədlərin delimitasiyası vacibdir"




15

## "Zəngilan Hava Limanının istifadəyə tam hazır olması..."




14

## Naxçıvana yollar açılacaq, istəsəniz də, istəməsəniz də



13

## Əhaliyə xəbərdarlıq: güclü külək əsəcək, dağlarda qar yağacaq



16

# Türkiyə-Azərbaycan

## birliyinin, qardaşlığının növbəti təntənəsi!

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb.**

## Azərbaycan və Türkiyə prezidentləri Zəngilən və Cəbrayıl rayonlarında olublar



Dünən Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər, daha sonra Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib. Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verib. Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək.

Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib.

Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və "Eurocontrol"un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib.

Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib. Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər. Bildirilib ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib.

Ardı Səh. 3

**Rəcəb Tayyib Ərdoğan:**
"Dağıdılmış bu bölgələr qardaşım İlham Əliyevin liderliyi ilə yenidən dirçəlir"

**Azərbaycan Prezidenti:**
"Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük"



# Türkiyə-Azərbaycan

## birliyinin, qardaşlığının növbəti təntənəsi!



Əvvəli Səh. 2

Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış ət məhsullarının paketlərinin üzərinə "Made in Karabağ" etiketlərinin ilk nümunələrini vurdular.

Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər. Sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş olunub. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış ediblər.

**Prezident İlham Əliyev:**

- Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.





**İlham Əliyev:**
"Şuşanın ermeni işğalından azad edilməsi Azərbaycan və Türkiyənin müştərək şanlı tarixidir"



Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu "Aqropark"ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Bu "Aqropark"ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu "Aqropark"ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilmişdir. Xeyirli olsun, uğurlu olsun!

**Prezident Rəcəb Tayyib Ərdoğan:**

- Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu "Aqropark"ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda - iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Ardı Səh. 4

# Türkiyə-Azərbaycan

## birliyinin, qardaşlığının növbəti təntənəsi!





**Türkiyə Prezidenti:** "İşğaldan azad edilən torpaqlarda bir ildə iki hava limanı açmaq hər ölkənin bacara biləcəyi iş deyil"

Əvvəli Səh. 3

Mən başda İlham qardaşım olmaqla "Dost Aqropark"ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm. İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm. Daha sonra dövlət başçıları "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.

Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verib.

Bildirilib ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini Azərbaycan Prezidenti 2021-ci il fevralın 14-də qoyub və layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur.

Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 kilometrdir. Dəmir yolu xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcək. Layihə çərçivəsində, həmçinin 456 süni mühəndis qurğusu, 70 yoldəyişən, 110,4 kilometr uzunluğunda rabitə və işarəvermə xətti istismara veriləcək. Hazırda dəmir yolu xəttinin 62-ci və 71-ci kilometrləri arasındakı ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır. Layihələndirilmə və tikinti işləri minatəmizləmə prosesinə paralel davam etdirilir.

Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin oktyabrın 20-də təməlqoyma mərasimi keçirilib, əraziyə 15 baş ceyran buraxılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verib.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə/Qarabağ Tədbirlər Planına uyğun olaraq bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində, həmçinin "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması nəzərdə tutulub. Oktyabrın 20-də Cəbrayıl şəhərində rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər. "Noyabrın 8-də alınmaz qala sayılan Şuşa erməni işğalından azad edildi və Azərbaycan bayrağı qaldırıldı. Bundan sonra Ermənistan təslim oldu. Bütün bu şanlı tarix bizim müştərək tariximizdir." Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında bildirib.



"İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır və bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı", - deyə dövlətimizin başçısı qeyd edib.

Dövlətimizin başçısı qeyd edib ki, bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Burada genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. "Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ının açılışını birlikdə qeyd etdik. Bu da bölgəyə birinci özəl sərmayədir, özəl yatırımdır və bu aqroparkın adı - "Dost Aqropark" özlüyündə hər şeyi deyir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, inşaat işlərində, yol çəkilişində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Qısa müddət ərzində böyük işlər gördüyünə görə Türkiyə şirkətlərinə minnətdarıq. Yolların bir hissəsinin artıq hazır olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulub. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumu uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü inşa ediləcək, onların bir qismi inşa olunub. Körpülərin uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görüləcək və görülən işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi tədbirimiz Cəbrayıl şəhərində keçirildi. Əslində Cəbrayıl şəhəri yoxdur. Burada oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma işğal dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər."

"Cəbrayıl şəhərindən bu dağılmış binalar qaldı və bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar. Qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, biz bunu Ağalı kəndinin timsalında görürük", - deyə dövlətimizin başçısı qeyd edib.

Dünən Ağalı kəndinə, oradakı məktəbə getdiyini bildirən Azərbaycan Prezidenti deyib ki, məktəbdə oxuyan 70 uşağın heç biri buranı görməyib: "Hətta onların valideynlərinin də bir çoxu işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaq və biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu quruculuq-bərpa işlərində türkiyəli qardaşlarımız bizimlə bir yerdədir".

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, ikinci Qarabağ müharibəsindən sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin ki, siz də görürsünüz, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyəti və zəmanəmizin tələbidir.

"Bu gün əziz qardaşımızın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı ilə və icazəsi ilə aparılacaq. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıb", - deyə dövlətimizin başçısı qeyd edib. Bu əziz gündə bizimlə bərabər olduqları üçün Türkiyə Prezidentinə və nümayəndə heyətinə bir daha təşəkkürünü bildirən Prezident İlham Əliyev qardaş Türkiyə xalqına xoşbəxtlik və sülh arzulayıb.

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cəbrayıl şəhərində mətbuata bəyanatla çıxış edib. Türkiyə dövlətinin rəhbəri qeyd edib ki, İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ən müasir ikinci hava limanını açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyil.

"Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Viadukları, körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. Biz bunları indi yaşayırıq, görürük. İndi sağa, sola baxıram, işğal dövründə Cəbrayılı nə hala salıblar. Mən qardaşımdan soruşdum, dedim, bu dünyadakı ATƏT, Avropa İttifaqı buraları gəlib görmədilərmi? Dedi ki, yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində onlar nələr törədildiyini bilirlər", - deyə Türkiyə Prezidenti qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, bu işləri mütləq ədalət mühakiməsinə vermək, bunların təzminatını tələb etmək lazımdır: "Onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq".

# Zəfər təntənəsini yaşadan 44 gün!



**21 oktyabr 2020-ci il. Vətən müharibəsinin tarixi günlərini yaşayırdıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və onun mükəmməl rəhbərliyi ilə irəliləyən müzəffər Ordumuz hər gün irəliyə doğru gedərək, düşməndən intiqamını alaraq, yeni qələbələrimizi tariximizə həkk edirdi. Dövlət-xalq birliyinin növbəti təntənəsini yaşadığımız həmin zamanda əsgərlərimizin düşməndən intiqam almaqda davam edərək, ermənilərə dərs verməsi tezliklə Zəfərimizin təntənəsini yaşayacağımız günün astanasında olduğumuzdan xəbər verirdi.**

Azərbaycan Prezidenti demək olar ki, hər gün "Twitter" səhifəsindən xalqa verdiyi müjdələr, eləcə də tarixi günlərdə xalqa müraciəti tezliklə zəfər qazanacağımızdan xəbər idi. İki il bundan əvvəl ilin bu günü "Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Minciva qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Bu sözlər 21 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" səhifəsində yer almışdır. Elə həmin gün Cənab Prezident "Twitter" səhifəsində "Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" - deyə bildirmişdir. Hər gün kənd və qəsəbələrimizin, şəhərlərimizin işğaldan azad olunması xəbəri insanlarda inam hissini daha da yüksəldirdi. Azərbaycan Ordusunun qazandığı uğurlar Prezident İlham Əliyevin həm siyasi, hərbi, diplomatik, həm də iqtisadi sahədə apardığı məqsədyönlü fəaliyyətinin nəticələri olduğunu bir daha nümayiş etdirirdi. Azərbaycan ərazilərinin azad olunması uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmənə sarsıdıcı zərbələri, Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri, eləcə də bir sıra yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin ələ keçirilməsi Müzəffər ordumuzun gücünü bir daha ortaya qoymuş oldu. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 27-dən 21 oktyabr tarixinədək Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edərək demişdir: "...Biz döyüş meydanında tam üstünlüyü ələ etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Bu, yəni sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır?".

Prezident İlham Əliyev müharibənin getdiyi zaman çərçivəsində dəfələrlə beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini ifşa edərək, təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş oldu. Dövlətimizin başçısı Ermənistanın işğalçılıq siyasətini, habelə müharibə cinayətlərinin mahiyyətini açmaqla, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün beynəlxalq kürsülərdən konkret faktlarla təcavüzkarı ifşa edir. Azərbaycan Prezidentinin "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK" və digər televiziya kanallarına, informasiya agentliklərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında önəmli rola malikdir. 44 günlük Vətən müharibəsində dövlət başçısı Ali Baş Komandan kimi öz gücümüzü bütün dünyaya bir daha sübut edərək, mənfur düşməni uzaqgörən siyasəti ilə məğlub etdi. Həm siyasi meydanda, həm döyüş meydanında "Qarabağ Azərbaycandır!" sözünü həkk etdi.

***Zümrüd BAYRAMOVA***

## "Zəngilan Azərbaycan üçün strateji əhəmiyyətli rayonlardan biridir"

**"Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Sentyabrın 27-də başlayan 44 günlük müharinə zamanı oktyabr ayının 20-də Zəngilan şəhəri erməni faşistlərindən azad oldu". Bu fikirləri SİA-ya açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.**




Onun sözlərinə görə, ümumiyyətlə Zəngilanın azad edilməsi ilə onun 4 qəsəbəsi və bütün kəndləri erməni işğalından azad edildi: "27 illik həsrətə son qoyuldu. Zəngilan rayonu Azərbaycan üçün strateji əhəmiyyətli rayonlardan biridir. Hər bir rayonumuz, hər bir kəndimiz bizim üçün doğmadır, əzizdir. Amma Zəngilan biraz fərqlidir. Çünki o bizim cənub qonşumuz olan İranla həmsərhəddir. Bu baxımdan Zəngilanın azad olunması və Araz boyu sərhədlərimizin bərpa edilməsi olduqca vacib şərtlərdən biri idi.

Zəngilan rayonu təbiətinə, florasına, faunasına görə digər bölgələrimiz kimi qiymətlidir. Zəngilan rayonun və kəndlərinin işğaldan azad edilməsi Azərbaycan ordusunun digər istiqamətdəki hücumlarının mövqeyini daha da gücləndirmiş oldu. Eyni zamanda digər işğal altında olan ərazilərimizə Azərbaycan Ordusu Zəngilanda məskunlaşıb və taktikasını genişləndirdikdən sonra hücum etmişlər.

Hazırda Zəngilan şəhərinə dövlət başçımız və birinci xanımın səfəri baş tutub. Oktyabrın 19-da ölkə başçısı və birinci xanım yaşayış obyektlərinin və digər obyektlərinin açılışında iştirak etdi. Bu gün böyük səbirsizliklə gözlədiyimiz Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi oldu. Həmçinin Türkiyənin Prezidneti Rəcəb Tayyib Ərdoğan da bu açılışda iştirak edib. Bu açılışın da məhz Zəngilan rayonunun işğaldan azad edildiyi tarixdə olması xüsusi əhəmiyyət kəsb edir. Düşünürəm ki, Zəngilan Beynəlxalq Hava Limanının açılışı bütün zəngilanlılar kimi bütün Azərbaycan xalqı tərəfindən sevinc və qürur hissi ilə qarşılanıb".

***Abutel İlhamqızı***

## "Hava Limanı bölgənin sosial-iqtisadi inkişafında mühüm rol oynyacaq"



"Cənab Prezident İlham Əliyevin digər rayonlarımıza olduğu kimi Zəngilana da səfəri böyük əhəmiyyət daşıyır. Bu səfər zamanı Zəngilan Hava Limanı açılacaq. Hava Limanının açılışı təkcə Şərqi Zəngəzur iqtisadi rayonunun deyil, zaman gələcək Qərbi Zəngəzurun da hava qapısı olacaq". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı bildirib.

Onun sözlərinə görə, Hava Limanının açılması bölgənin sosial-iqtisadi inkişafında mühüm rol oynyacaq: "Yeni infrastruktur yaranacaq, iş yerləri açılacaq. Bu səfər zamanı dövlət başçımız Zəngilanda yaşayış binasının da təməlini qoydu. Bu onu göstərir ki, qarşıdakı bir neçə il ərzində Zəngilan şəhər mərkəzi özünün ilk keçmiş məcburi köçkünlərini qəbul edə biləcək.

Cənab Prezident İlham Əliyev demək olar ki, bütün səfərlərində məktəb binalarının təməlini qoyur. Bu dəfə də Zəngilanda məktəb binasının təməlinin qoyulmasının çox böyük rəmzi mənası var idi. Bu onu göstərir ki, işğaldan azad edilmiş ərazilərimizə təhsilimiz, elmimiz, cəmiyyətimiz qayıdır.

Ölkə rəhbərimizin Ağalı kəndində birinci xanım Mehriban Əliyeva ilə məktəbə getməsi, məktəb kollektivi ilə o cümlədən kənd sakinləri ilə görüşməsi həm təhsilimizə olan diqqət və qayğının, həm də dövlət başçımızın sadə xalq adamı olduğunun göstəricisidir. Buna görə də bu səfəri böyük əhəmiyyətli hesab edirəm".

***Səbinə Hüseynli***

SİYASİ RAKURS+AKTUAL

# Bakının güc faktoru yenidən işə düşə bilərmi?

*Sülhməcburetmə missiyası hər an qüvvədədir!*

Bu günlərdə məlum olub ki, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla delimitasiya olunmamış sərhədlərdə Aİ-nin yalnız bir missiyası ilə kifayətlənmək fikrində deyil. Belə ki, onun xarici işlər naziri Ararat Mirzoyan norveçli həmkarı Anniken Hyuitfeltlə görüşü zamanı İrəvanın ATƏT-ə növbəti müraciət göndərdiyini və əlavə müşahidəçilərin də sözügedən prosesə cəlb olunması ilə bağlı təklifləri irəli sürdüyünü bildirib. O da bəllidir ki, Paşinyan Gürcüstandan ezam edilən Aİ və ATƏT missionerləri ilə dayanmayacaq, digər analoji strukturlara da müraciət edəcək. Və maraqlıdır ki, Paşinyan bunu KTMT ilə əlaqələndirir, yəni KTMT-nin hərbçilər göndərib Azərbaycan Silahlı Qüvvələri ilə üzbəüz mövqelərdə yerləşdirmək istəməməsi ilə bəhanə edir, özünə haqq qazandırır ki, belə olmayacaqsa İrəvan digər beynəlxalq strukturlara müraciət edəcək. Yəni Paşinyan üçün hansı yönümlü siyasi dairələrin Azərbaycan sərhədləri ilə qarşı-qarşıya qalması maraqlı deyil, əsas budur ki, həmin dairələr olsun - Rusiya deyilsə Qərb, Qərb deyilsə başqa tərəf...



## Müşahidəçilər özləri də istəmədən (bəlkə də istəyərək) İrəvanın təxribatlarının iştirakçılarına çevriləcəklər

Lakin bir sıra ekspert dairələrinin fikirlərinə görə Qərb strukturlarının sözügedən məsələdə effektlikləri olmayacaq. Təkcə say etibarı ilə götürsək belə nəticəyə gəlinir. Aİ-nin müşahidəçilər missiyası 40 nəfəri əhatə edir. Ermənistanla Azərbaycan arasındakı sərhədlərin uzunluğu isə 1000 km-dir. Yəni 1000 km-lik sərhədləri eyni anda 40 nəfər müşahidəçi ilə müşahidə etmək fiziki baxımdan mümkün deyil. O cümlədən, qarşıdan gələn soyuq fəsillərdə şaxtalı-ayazlı, qarşı-qışlı iqlim şəraiti də buna imkan verməyəcək.

Digər tərəfdən, nəzərə alınsa ki, Ermənistan sərhəd boyu təxribatlarını davam etdirmək niyyətindədir və hazırda da Daşkəsən rayonu ilə olan mövqelərə artilleriya və s. qurğuları toplanıb, əlavə olaraq hər gün atəşkəs rejimi pozulur - bu zaman Ermənistan təxribat törətməyə cəhd etdiyi ərazilərə Aİ müşahidəçilərini buraxmayacaq. Yalnız təxribatlar həyata keçirildikdən sonra müşahidəçilərə məlumat veriləcək ki, onlar silahlı insidentləri qeydə alsınlar. Ancaq təxribatın hansı tərəfdən törədildiyi, yəni Ermənistan tərəfindən cəhd edilməsi məlum olmayacaq. Beləliklə, müşahidəçilər özləri də istəmədən (bəlkə də istəyərək) İrəvanın təxribatlarının iştirakçılarına çevriləcəklər.

## Paşinyan hökumətinə görə, Moskva İrəvanın Bakıya qarşı yersiz iddialarının həyata keçirilməsinə imkan vermir

Ermənistanın Rusiyadan imtinası daha bir amilə söykənir. Misal üçün, Rusiya həm Azərbaycanla, həm də Ermənistanla müttəfiqlik səviyyəsindədir və əgər Bakı ilə İrəvan arasında hər hansı bir məsələ qabardılarsa Moskva öz müttəfiqlərinin iştirakı, razılığı olmadan vasitəçilik mexanizmini işə sala bilməz. İrəvana isə belə yanaşma sərf etmir. Daha dəqiq desək, Paşinyan hökumətinə görə, Moskva İrəvanın Bakıya qarşı yersiz iddialarının həyata keçirilməsinə imkan vermir.

Ermənistan, əslində, öz əlini Rusiyadan hələ 2020-ci ilin 44 günlük müharibəsi vaxtından üzüb. Nikol Paşinyanın Vladimir Putinə etdiyi çoxsaylı zənglərinə rəğmən, Moskva İrəvanın diqqətinə çatdırdı ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edir və həmin məsələdə yalnız vasitəçilik rolunu oynaya bilər. Və həmin mənzərənin kulminasiya nöqtəsi bu il sentybarın 12-14-də sərhəddə baş verən növbəti erməni təxribatı zamanı yaşandı. Guya Azərbaycanın Ermənistanın "suveren" ərazilərində hərbi əməliyyatlar keçirdiyini iddia edən, əslində isə özü təxribata əl atan İrəvan bu dəfə də KTMT-nin rədd cavabını aldı!

## Erməni hökumətinin nazirləri artıq Avropaya və ABŞ-a səfərlərini su yoluna çeviriblər, amerikalı konqresmenlər də Nümayəndələr Palatasının rəhbəri Nensi Pelosinin səfərinin ardınca günaşırı olaraq İrəvana ayaq döyməkdədirlər

İndi isə göründüyü kimi, digər cinahlardan dəstək alacağını düşünür. Erməni hökumətinin nazirləri artıq Avropaya və ABŞ-a səfərlərini necə deyərlər, su yoluna çeviriblər. İrəvana da qarşı səfərlər baş tutur. Belə ki, amerikalı konqresmenlər də Nümayəndələr Palatasının rəhbəri Nensi Pelosinin səfərinin ardınca günaşırı olaraq İrəvana ayaq döyməkdədirlər.

Yeri gəlmişkən, buna qədər Nikol Paşinyan ABŞ və Fransanın sözdə sülhməramlı qüvvələrinin sərhədlərə yerləşdirilməsini istəyirdi. Ancaq bu istəyinin baş tutmayacağını biləndən sonra Aİ-nin mülki missiyasının regiona müşahidəçi qismində gələcəyi məlum oldu. Lakin daha bir iddialar ondan ibarətdir ki, bu kimi mülki missiyaların heyətində Qərbin, əsasən ABŞ-ın xüsusi xidmət orqanlarının adamları da olacaqlar ki, onların məqsədləri görüntü xarakteri daşıyacaq. Daha dəqiq desək, belə adamlar əsasən Rusiyanın Ermənistandakı hərbi varlığını gizli təftiş edəcək, kəşfiyyat materialları toplayacaqlar. Çox keçməz həmin fakt da ifşa olunacaq.

## Qərbin məqsədi - Avrasiya məkanında möhkəmlənərək Moskvanın bu məkandan, ən azı isə Ermənistandan sıxışdırılıb-çıxarılması...

Bütövlükdə isə Qərb onun üçün yaranmış bu imkanlardan yararlanacağını hesabayıb. Məsələn, onlar ilk növbədə Rusiyanın təsir etdiyi regiona daxil olurlar və buradakı daha bir məqsəd Avrasiya məkanında möhkəmlənərək Moskvanın bu məkandan, ən azı isə Ermənistandan sıxışdırılıb-çıxarılmasıdır. Belə olan vəziyyətdə isə növbəti sual meydana çıxır: bəs qarşıda imzalanacaq sülh müqaviləsi, Brüsseldə razılaşdırılmış məsələlər necə olacaq? Axı bildiyimiz kimi, Brüssel də İrəvanı sülh müqaviləsini imzalamağa tələsdirir, belə ki, həmin məsələdən sonra Bakı ilə enerji əməkdaşlığı faktoru daha da genişləndiriləcək. Amma "mülki müşahidəçilər" kütləsi qarşıda dayanan planlara əslində maneələr yaradacaq.

Belə bir mühitdə isə Bakı və onun tərəfdaşları heç nə itirmirlər, hətta mövcud situasiyada Azərbaycan sülhməcburetmə missiyasını bu dəfə daha qısa müddətdə həll etmək gücündə olduğunu nümayiş etdirəcək.

**Rövşən RƏSULOV**

# Parisdə Fransa daşnaklarının sabiq lideri Loris Tufanyan həbs olunub

"Bu gün səhər Paris polisi Daşnak Erməni İnqilabı Federasiyasının gənclər qolunun keçmiş sədri, 2015-ci ildə Charjoum dissident qrupunun yaradıcılarından biri olmuş Loris Tufanyanı həbs edib. Ehtimal var ki, həbs Azərbaycan səfirliyi nəzdində fəaliyyət göstərən mədəniyyət mərkəzinə edilən hücumla bağlıdır". SİA xəbər verir ki, bu barədə fransız tarixçi və politoloq Maksim Qauin (Maxime Gauine) özünün tvitter səhifəsində yazıb.

Qeyd: Bu arada, sözügedən həbslə bağlı həm də belə qənaətə gəlmək olar ki, Fransa həqiqətən də qəribə demokratiyaya məxsus olan bir ölkədir. Daha dəqiq desək, cinayət tam təfsilatı ilə göstərilməsə qanunu və hüququ mühafizə edən orqanlar sanki onu görməzlikdən gəlirlər. Misal üçün, Qarabağ torpaqları işğal altında olarkən Fransanın şəhərləri separatçılarının saxta erməni şəhərləri ilə qardaşlaşırdılar. Bu barədə etiraz ediləndə isə mərkəzi hakimiyyət bildirirdi ki, onlar bələdiyyələrə təsir edə bilmirlər. Yalnız məhkəmələrə müraciət ediləndən və uzunmüddətli tələblərdən, o cümlədən çıxarılan məhkəmə qərarlarından sonra fransızların separatçılarla "qardaşlaşma" barədə qərarlar ləğv edilirdi. Həmin qərarlarda isə o da vurğulanırdı ki, bələdiyyələrin xarici siyasətlə məşğul olmaları qadağandır.


← Thread Open app

Maxime Gauin
@MaximeGauin

This morning, the Parisian police arrested Loris Toufanian, former chair of the ARF's youth branch in France, who co-established the dissident group Charjoum in 2015. The arrest is likely due to a violent demonstration against the Azerbaijani embassy's cultural center.

CharjoumLeMouvement
@charjoum

Ce matin à 9h30, notre camarade militant de la cause arménienne, Loris Toufanian, a été place en garde à vue dans les locaux de la Sûreté territoriale de Paris. Nous vous tiendrons informés des suites de cette affaire.

4:16 PM · 19 oct. 2022 · Twitter for Android

**Rövşən**



# "Makronun erməni ruhunu hamı gördü"

"Praqada keçirilmiş dördtərəfli danışıqlarda nəticənin əldə olunmasında Fransanın heç bir xidməti olmayıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin razılığı ilə Fransa prezidenti Emmanuel Makron danışıqlarda iştirak edib : "Əgər cənab Prezident razılıq verməsəydi, Makron yenə də danışıqlardan kənarda qalardı. Fransanın Azərbaycandakı səfiri Zaxari Qrosun Praqa ruhunun yaşaması və əldə olunmuş nəticələrdə Fransanın xüsusi xidmətli olduğunu deməsi absurd və tamailə yanlışdır".

Deputat sözlərinə belə davam edib: "Danışıqlarda da və sonra "Fransa -2" telekanalına verdiyi müsahibəsində də Makronun erməni ruhunu hamı gördü. Bizə nə Makronun, nə də Fransanın ruhu lazım deyil. Yeganə istəyimiz sadəcə Azərbaycanla Ermənistan arasında aparılan danışıqlara Fransanın müdaxilə etməməsidir. Öz işimizi Makronun ruhu olmadan daha yaxşı görürük və görəcəyik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti və xalqımızın milli maraqlarına uyğun qərarların qəbul etməsi bizim üçün ən böyük ruhdur. İnanıram ki, məhz Prezidentimizin ədalətli mövqeyini uca tutaraq Ermənistanla sülh müqaviləsi bağlanacaq və ölkələr arasında münasibətlər öz yoluna düşəcək".

**Ayşən Vəli**

# “Postmüharibə dövründəki sosial çağırışlar və dövlət strategiyası” mövzusunda tədbir keçirilib

**Oktyabrın 20-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və partiyanın Abşeron rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Postmüharibə dövründəki sosial çağırışlar və dövlət strategiyası” mövzusunda tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Xırdalan şəhərində ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzüblər.

Abşeron rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ilk olaraq ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev mövzunun aktuallığından bəhs edib.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Azərbaycanda həyata keçirilən sosial siyasətin əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, dövlətimizin siyasətində əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritetdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edildiyini xatırladan Arif Rəhimzadə ötən iki il ərzində Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işlərinin












həyata keçirildiyini deyib. YAP Veteranlar Şurasının sədri qeyd edib ki, bütün bunlar postmüharibə dövründə ölkəmizin iqtisadi inkişafında vacib rol oynamaqla yanaşı, sosial sahəyə də əhəmiyyətli təsir göstərəcək.

1990-cı illərin əvvəlində respublikamızdakı vəziyyəti xatırladan Arif Rəhimzadə deyib ki, o dövrdə əhalinin sosial vəziyyəti olduqca ağır idi. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu sahədə ciddi dönüş yarandı. Onun sözlərinə görə, Ulu Öndərimizin siyasətində vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi xüsusi yer tuturdu. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Arif Rəhimzadə xüsusilə ölkəmizdə şəhid ailələrinə və qazilərə dövlət qayğısının





yüksək olduğunu diqqətə çatdırıb.

Abşeron Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Yusif Sadıqov çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsi tarixi-



mizə qızıl hərflərlə yazılıb. Bu müharibədə qəhrəman hərbçilərimiz böyük şücaət, fədakarlıq göstərdilər. Onun sözlərinə görə, torpaqlarımızın erməni işğalından azad olunması zamanı canlarını qurban vermiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən hərtərəfli qayğı göstərilir. Yusif Sadıqov deyib ki, Abşeron rayonunda 400-ə yaxın şəhid ailəsi yaşayır ki, onların da 143-ü 44 günlük Vətən müharibəsinin şəhidləridir.

Tədbirdə Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ”Dövlət qulluğu və kadr siyasəti” kafedrasının professoru Hadi Rəcəbli ”Postmüharibə dövründəki sosial çağırışlar və dövlət strategiyası” mövzusunda məruzə ilə çıxış edib. Hadi Rəcəbli qeyd edib ki, Azərbaycan şəhid ailələri, eləcə də müharibə əlillərinə göstərdiyi qayğıya görə dünya ölkələrinə bir nümunədir. Onun sözlərinə görə, dünyada az ölkə tapılar ki, müharibə iştirakçılarına, sağlamlığını itirmiş hərbi qulluqçulara, şəhid ailələrinə ölkəmizdəki kimi qayğı göstərilsin, onlara mənzil və minik avtomobilləri hədiyyə olunsun. H.Rəcəbli bildirib ki, bu gün Azərbaycanda Prezident İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Bu mənada, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranlarına olan diqqət və qayğı xüsusi yer tutur.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov çıxışında bildirib ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində uğurlu dövlət siyasəti həyata keçirilir. Təbii ki, bu kontekstdə dövlətin torpaqlarımızın azadlığı uğrunda vuruşan müharibə əlilləri, veteranları və şəhid ailələrinə xüsusi qayğı ilə yanaşması xüsusi vurğulanmalıdır. Onun sözlərinə görə, postmüharibə dövründə bu məsələ daha da aktuallaşıb. Şəhid ailələrinin və qazilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlərin görülməsi onlara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir. Babək Hüseynov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi tədbirlər haqqında ətraflı məlumat verib.



Tədbirdə, həmçinin Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, Əmək və sosial siyasət komitəsinin üzvü Jalə Əliyeva və YAP Veteranlar Şurasının sədr müavini, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxış edərək ölkəmizdə şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısından bəhs ediblər.

Sonra tədbir diskussiya şəraitində davam edib, şəhid ailələrinin üzvlərinin və qazilərin sualları cavablandırılıb.

# Yeni Azərbaycan Partiyası:
# 30 İL DÖVLƏTÇİLİK UĞRUNDA

"Səs" qəzetinin redaksiyasında YAP-ın yaradılmasının 30-cu ildönümünə həsr edilmiş dəyirmi masa keçirilib



**”Səs” qəzetinin redaksiyasında Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş ”Yeni Azərbaycan Partiyası: 30 İL DÖVLƏTÇİLİK UĞRUNDA” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov, Milli Məclisin deputatı, YAP Nəzarət Təftiş Komissiyasının üzvü Elman Nəsirov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, YAP fəalı, memar Sədrəddin Əkbərli, YAP Suraxanı rayon təşkilatının fəal gənci Fərəh Məcidzadə iştirak ediblər.**

Dəyirmi masanı giriş sözü ilə açan ”Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev ”Səs” qəzetinin redaksiyasında ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrlə bağlı ənənəvi olaraq, dəyirmi masaların təşkil olunduğunu bildirib. Növbəti dəyirmi masanın Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunduğunu və yubiley münasibətilə silsilə olaraq redaksiyamızda dəyirmi masaların keçirildiyini iştirakçıların diqqətinə çatdırıb.

B.Quliyev YAP-ın keçdiyi şərəfli tarixi yola nəzər salaraq, YAP-ın xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini bildirib: ”Yeni Azərbaycan Partiyası ölkənin həyatında müstəsna rol oynayan, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan siyasi partiya olaraq dövlətçiliyimizin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərinin təmin edilməsində mühüm rol oynayıb. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Bu gün artıq YAP-ın yaranma tarixindən 30 il ötür. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Sözlə əməl birliyi, partiya üzvlərinin Ulu Öndər Heydər Əliyev ideyalarına və Onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə sədaqəti YAP-ın ölkədə nüfuzunu daha da artırmış, ümumilikdə, bölgənin aparıcı təşkilatı kimi mövqeyini möhkəmləndirmişdir”.

”Bugünkü müasir, müstəqil Azərbaycan dövləti yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb”, - deyən B.Quliyev bildirib ki, müstəqilliyin ilk illərinin ictimai-siyasi proseslərinə, ümumi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli, məhz lider amili, onun qətiyyəti və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Bu gün tarixi bir dövrə nəzər salaraq, müzakirələrimizdə dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik olan və müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən biri hesab edilən hadisələrdən olan Yeni Azərbaycan Partiyasının yaradılması və inkişaf yolu ilə bağlı fikirlərimizi ifadə edək.



**BƏHRUZ QULİYEV:**

***- Qafar müəllim, ötən əsrin 90-cı illərində yaranmış ictimai-siyasi ab-havaya, mənzərəyə nəzər salaq. YAP hansı zərurətdən yarandı?***

## YAP YARANIŞI İLƏ AZƏRBAYCANIN İCTİMAİ-SİYASİ FİKİR, SİYASİ FƏALİYYƏT VƏ MÜBARİZƏLƏR TARİXİNƏ YENİ BİR KEYFİYYƏT GƏTİRDİ

**QAFAR ƏLİYEV, YAP Qaradağ rayon təşkilatının sədri:**

- İlk olaraq bildirim ki, YAP siyasi zərurətdən və ictimai tələb əsasında yaranmış partiyadır. O zaman Azərbaycanda hakimiyyətin milli maraqlara zidd siyasəti nəticəsində ölkədə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürürdü. YAP-ın yaradılması Azərbaycanın müasir tarixinin möhtəşəm və ən əlamətdar hadisələrindən biridir. Yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan həmin illərdə ölkəyə rəhbərlik edənlərin bacarıqsızlığı və bağışlanmaz səhvləri ucbatından ağır böhran içərisində boğulur, ölkədə qeyri-sabitlik tüğyan edir, torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu. 30 il əvvəl Yeni Azərbaycan Partiyasının təsis olunması Azərbaycan tarixində mühüm hadisəyə çevrildi. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət idi. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Ulu Öndər Heydər Əliyev ola bilərdi. Belə bir şəraitdə Azərbaycan xalqı ümidini, məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı ”91-lər” Heydər Əliyevə müraciət edərək, Yeni Azərbaycan Partiyasının yaradılmasını irəli sürmüşdür. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara ünvanladığı 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. Məhz bundan sonra, 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransında Ulu Öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi ölkəmizin parlaq



gələcəyini müəyyənləşdirən çox mühüm, əlamətdar hadisə oldu. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi. Yeni Azərbaycan Partiyası indiyə kimi qalibiyyətlər, qələbələr, zəfərlər partiyası kimi fəaliyyət göstərib və onun bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşayiət olunacaq. Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edəcək.

**BƏHRUZ QULİYEV:**

***- Elman müəllim, ötən əsrin 80-ci illərinin sonunda mürəkkəb siyasi situasiya yaranmışdı və həmin dövrü necə xarakterizə edərdiniz?***

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV ÖZÜNÜN ƏMƏLİ FƏALİYYƏTİ İLƏ DOĞMA XALQININ ƏBƏDİ MƏHƏBBƏTİNİ QAZANARAQ, ƏSL ÜMUMMİLLİ LİDERƏ ÇEVRİLMİŞDİR

**ELMAN NƏSİROV, Millət vəkili:**

- Artıq həmin dövrdə elə bir vəziyyət yaranmışdı ki, SSRİ-nin dağılması labüd idi. Naxçıvanda gedən proseslər Sovet İttifaqının dağıdılmasını sürətləndirmişdi. Ulu Öndər həmişə xalqla birgə olduğunu, onun taleyi ilə



yaşadığını tarixi xidmətləri ilə sübut etmişdir. 1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq, təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. 1990-cı il iyul ayının 22-də Heydər Əliyevin Naxçıvana gəlməsi, elə həmin ilin noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağının qaldırılması böyük hadisə idi. 1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi mühüm bir hadisəyə çevrildi. Böyük dövlət xadiminin ilk gündən başlayaraq, atdığı addımlar, həyata keçirdiyi tədbirlər Naxçıvanı düşmən əlinə keçmək təhlükəsindən xilas etdi. Həmin dövrdə siyasi hakimiyyətdə olanlar Heydər Əliyevin hakimiyyətə gəlməsindən çox narahat idilər. Ancaq Azərbaycan xalqının Heydər Əliyevə ehtiyacı var idi. 1992-ci ilin oktyabr ayının 16-da "Səs" qəzetində 91 nəfər qabaqcıl vətənpərvər ziyalının müraciəti dərc olundu. Həmin ilin oktyabr ayının 24-də Heydər Əliyev "Səs" qəzeti vasitəsilə 91 nəfərin müraciətinə cavab verdi. Ziyalıların Heydər Əliyevə müraciəti və partiya yaratmağa cəlb edilməsi, Onun ziyalılara müsbət cavabı o dövrün əhəmiyyətli hadisələrindən biridir. Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı irəli çəkdi və artıq Azərbaycan tanınmağa başlandı. Bu gün Azərbaycan Ulu Öndərin ideyalarından bəhrələnərək, gələcəyə doğru inamla addımlayır. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə inkişaf etdi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

## CƏNUBİ QAFQAZIN ƏN BÖYÜK SİYASİ PARTİYASI OLAN YENİ AZƏRBAYCAN PARTİYASININ NÜFUZU DAVAMLI OLARAQ ARTIR

**AZƏR BADAMOV, Millət vəkili:**

- Bu gün əlamətdar bir gündür. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilanda Beynəlxalq Hava Limanın açılışını edirlər. Bu, ölkəmiz üçün olduqca əhəmiyyətli hadisədir. Müasir dövrümüzdə Azərbaycanın hər bir yerində inkişafı görürük. 30 illik yubileyini qeyd etdiyimiz Yeni Azərbaycan Partiyası qısa müddət ərzində siyasi səhnədə layiqli yer tutdu və xalqı öz ətrafında sıx birləşdirdi. Ümummilli Lider Heydər Əliyev Ye-



ni Azərbaycan Partiyasının fəaliyyət konsepsiyasını və prioritetlərini, məhz dövrün çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirdi. YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qətiyyətli müdafiəçisinə çevrildi. Digər tərəfdən, Ulu Öndərin yüksək nüfuzu, xalqın Ona böyük inam və etimadı Yeni Azərbaycan Partiyasını qısa müddət ərzində yüksəlişini təmin edən mühüm faktorlardan birinə çevrildi. Partiyamız qısa müddət ərzində Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gələrək ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi. YAP ötən 30 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yol keçərək, ümumxalq partiya-



sına çevrilib. Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, Heydər Əliyev ideyaları əsasında tarixi təşəbbüslərə və nailiyyətlərə imza atmışdır. Məhz bunun nəticəsidir ki, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nüfuzu davamlı olaraq artır. Ümumxalq partiyası olan YAP-ın fəaliyyətinin səmərəliliyini təmin edən vacib faktorlardan biri partiyanın davamlı islahatlar çərçivəsində təkmilləşməsidir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Bu baxımdan, xüsusi vurğulamaq istəyirəm ki, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII Qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Qurultayda partiyamızın Sədri, dövlət başçısı Cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə imkan yaradır. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar fonunda dövlətin qətiyyətli siyasətinə, xalqın həmrəyliyinə paralel olaraq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə, Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və yeni strateji zirvələr fəth etməsinə layiqli töhfəsini verəcəkdir.

**BƏHRUZ QULİYEV:**

***- Sədrəddin müəllim, YAP-ın loqosunun necə müəyyənləşməsi haqqında fikirlərinizi eşitmək maraqlı olardı.***

## QAZANILAN NAİLİYYƏTLƏR, İNKİŞAF VƏ TƏRƏQQİ, HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN



## BƏHRƏSİDİR

**SƏDRƏDDİN ƏKBƏRLİ, YAP fəalı, memar:**

- İlk olaraq bildirim ki, mən 90-cı illərin əvvəllərində tələbə olaraq Moskva şəhərində təhsil alırdım. Ölkəmizdə baş verən hadisələr Moskvadan, uzaq məkandan daha aydın görünürdü. 1990-cı il yanvarın 19-dan 20-nə keçən Bakıya yeridilən sovet ordu hissələri xalqımıza vəhşicəsinə divan tutdu. Qanlı Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı təcavüzə ilk etiraz səsini ucaldan, məhz Ulu Öndər Heydər Əliyev oldu. Hadisənin ertəsi günü Heydər Əliyev Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gəldi, dərin hüzn içərisində xalqımıza başsağlığı verdi. Ulu Öndər Vətəninin harayına yetişərək, beynəlxalq mətbuat konfransı keçirdi, Bakı həqiqətlərini bütün dünyaya yayılması üçün geniş bir qapı açdı. Qeyd edim ki, mətbuat konfransı keçirildikdən sonra, axşam saat 9-da nümayəndəliyə vəhşicəsinə hücum olundu. Təhsilimi baş vurduqdan sonra mənə Naxçıvanda işləmək təklif olundu. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq uzaqgörənliyi, fədakarlığı, müdrikliyi ilə müstəqil dövlətimizin təməlini möhkəmlətdi, Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev Şəxsiyyətinin bəhrəsidir. 1992-ci ildə Yeni Azərbaycan Partiyası yaranmışdı, amma olun loqosu yox idi. 80-nə qədər mənim variantım var idi. Onları Heydər Əliyevə təqdim etmək üçün məni Naxçıvana göndərdilər və Ulu Öndərlə görüşüm. Həmin loqolardan üçünün üzərində dayandı, amma sovet dövründə də ulduzla ifadə olunan loqolar çox olubdur. Ulu Öndərin ağac diqqətini xüsusi olaraq cəlb etmişdir. Həmin loqonun üzərinə dayandı və bu, YAP-ın simvoluna çevrildi.

## BİZ XOŞBƏXT GƏNCLİYİK Kİ, BELƏ DÖVLƏTDƏ YAŞAYIRIQ

**FƏRƏH MƏCİDZADƏ, YAP Suraxanı rayon təşkilatının fəal gənci:**

- Yeni Azərbaycan Partiyası ötən 30 il ərzində böyük inkişaf yolu keçib. Öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib. Bu gün biz xoşbəxt gəncliyik ki, belə bir dövlətdə yaşayırıq. Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir. Ümumiyyətlə, Yeni Azərbay-



can Partiyası hər zaman fəaliyyətində gənclərin inkişafına geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin bu gün Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Mənim bir gənc olaraq, 2019-cu ildə seçkili orqanda iştirak üçün namizədliyimin irəli sürülməsi və bələdiyyə üzvü seçilməyim gənclərə olan diqqətin bir nümunəsidir. YAP bu gün istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai, siyasi fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə mühüm işlər görür. YAP gənləri fəaldırlar və müxtəlif səpkili layihələrin keçirilməsində təşəbbüskardırlar. Bizim Azərbaycan ordusu zəfər qazanmış bir ordudur. Müasir gəncliyin belə vətənpərvər ruhda formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz rolu var. Ulu Öndər və Onun davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə olan diqqət-qayğısı daim göz özündədir. Biz bu gün fəxr edirik ki, rəhbərimiz Cənab İlham Əliyevdir.

(ardı var)

***Nəzakət ƏLƏDDİNQIZI***





# YAP 30 ildə zəngin və şərəfli inkişaf yolu keçib!

## Yasamalda YAP-ın 30 illik yubileyi münasibəti ilə tədbirlərə start verilib

**Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının "H.Cavid pr.33A" (Bakı Metropoloteni QSC) ünvanı üzrə ərazi partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 30 illik yubileyi münasibəti ilə tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Yasamal rayon təşkilatının məsul əməkdaşları, H.Cavid pr.33A" (Bakı Metropoloteni QSC) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Hidayət Məmmədov və sədr müavini Rəhilə Ramazaova, ərazi partiya təşkilatının nümayəndələri iştirak edib.**

Tədbirdə ilk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra müasir, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İştirakçıları salamlayaraq tədbiri açıq elan edən H.Cavid pr.33A" (Bakı Metropoloteni QSC) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Hidayət Məmmədov tədbirin baş tutmasının əsas səbəbinin qarşıdan gələn Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ilə bağlı olduğunu qeyd etdi.

Vurğulandı ki, 30 illik fəaliyyəti dövründə sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirən Yeni Azərbaycan Partiyasına xalqımızın dəstəyi və məhəbbətinin əhəmiyyətli dərəcədə yüksək olması danılmazdır. Sonra çıxış üçün söz Yap Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyevə verildi.Çıxış edən Yap Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirdi ki, yarandığı gündən YAP-ın Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 30 ildə öz məqsədlərinə uyğun yüksək səviyyəli dinamik şəkildə inkişaf etməkdədir. Bu baxımdan da partiyamızın üzvlərinin gündən-günə artması qürürverici bir hissdir. Bundan əlavə qeyd olundu ki, Ulu Öndər Heydər Əliyevin siyasi və layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əl etdiyimiz zəfər, regionda yaranan reallıqlar vətənimizi dünyanın qabaqcıl ölkələri sırasında ön cərgələrdə yer almasına səbəb olmuşdur. Azərbaycan Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərlə Azərbaycan xalqının, eyni zamanda, Yeni Azərbaycan Partiyasının ən mürəkkəb və ən çətin, ancaq həm də ən ali məqsədini reallaşdırmış oldu. Çıxışına davam edən Bəxtiyar Nəbiyev sonda Yeni Azərbaycan Partiyası sıralarına yeni daxil olan 46 nəfər əməkdaşa ictimai-siyasi fəaliyyətlərində uğurlar arzulayıb.

B.Nəbiyev çıxışının sonunda qarşıdan gələn "Bakı Metropoliteni" QSC-nin yaranmasının 55 illik yubileyi münasibəti ilə bütün əməkdaşları təbrik edib.Çıxış edən "H.Cavid pr. 33A" (Bakı Metropoloteni QSC) ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rəhilə Ramazaova partiyamızın uğurlarından bəhs edərək yeni üzv olan əməkdaşlara ictimai-siyasi fəaliyyətlərində uğurlar arzu edib.Çıxış edən ərazi partiya təşkilatının nümayəndələri-Samir Əhmədov və Şaiq Heydərov Partiyanın keçdiyi 30 illik şərəfli yolun Xalq-İqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu təsdiqləməklə, müstəqil Azərbaycanın Yeni Azərbaycan Partiyası ilə birgə uğurlu gələcəyə doğru böyük inamla irəliləməsini qeyd etdilər.

Tədbirinin sonunda bir qrup əməkdaşa Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri və fəxri fərmanlar təqdim olunub.

***Nəzakət***

# Cənubi Qafqazın ən güclü siyasi qüvvəsi

## YAP Kəlbəcər rayon təşkilatı Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirib

**Oktyabrın 20-də Gəncə Regional Mədəniyyət İdarəsinin Kəlbəcər rayon Mədəniyyət sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Gəncə şəhərində ucaldılmış abidəsi və Kəlbəcər şəhidlərinin abidə kompleksi ziyarət olunub, onların əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib. Tədbir Dövlət Himninin səsləndirilməsi, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.






Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə məruzə ilə çıxış edən YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiyanın 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini deyən Həbib Misirov vurğulayıb ki, bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir. "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir, Azərbaycan möhtəşəm nailiyyətlər qazanır. Partiyanın ötən il keçirilmiş VII qurultayından sonra məqsədyönlü işlər görülüb. Bu, həm Azərbaycanın, həm də Yeni Azərbaycan Partiyasının inkişafına müstəsna töhfədir", - deyən Həbib Misirov YAP Kəlbəcər rayon təşkilatının fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, hazırda təşkilat üzvlərinin sayı 4 min 200 nəfərə çatıb.

Çıxış edən Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Cavid Qurbanov qeyd edib ki, ölkədə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur. O bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi müvəffəqiyyətlər qazanır. Azərbaycan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfər qazandı. Bu, qətiyyətli sərkərdənin "dəmir yumruğu", qüdrətli ordunun şücaəti, xalqın liderinə sarsılmaz inamı sayəsində reallaşdı".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov çıxış edərək bildirib ki, YAP ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfələrini verir.

Milli Məclisin deputatı Aqil Məmmədov da çıxışında YAP-ın ölkəmizin ictimai-siyasi həyatında aparıcı rolundan danışaraq partiyamızın alternativsiz siyasi qüvvə olduğunu vurğulayıb.

Çıxış edən Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev isə bildirib ki, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da nailiyyətlərə imza atacaq.

Tədbirdə, həmçinin "Vətən müharibəsi qəhrəmanı", şəhid polkovnik-leytenant Anar Əliyevin atası Vaqif Əliyev, partiyanın veteran üzvü Qəzənfər Musayev, Vətən müharibəsi qazisi Xəyyam Fətəliyev, YAP fəalı Aytac Məmmədova, Kəlbəcər rayon İcra Hakimiyyətinin məsul əməkdaşı Hikmət Bağırov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan ətraflı bəhs ediblər.

Tədbirin sonunda Kəlbəcər rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi, Vətən müharibəsi iştirakçılarına medallar təqdim edilib.






# YAP böyük inkişaf yolu keçərək davamlı uğurlara imza atmaqdadır!

*Yevlaxda Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib*

**Oktyabrın 20-də Yevlax şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Yevlax Şəhidlər Xiyabanını və ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.**

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Tədbirdə çıxış edən YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev Azərbaycan xalqının xilaskarı, partiyamızın qurucusu, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətindən, eyni zamanda, Yeni Azərbaycan Partiyasının 30 il ərzində ölkəmizin ictimai-siyasi həyatında oynadığı roldan ətraflı bəhs edib. Təşkilat sədri qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız böyük nailiyyətlər qazanıb. YAP Yevlax rayon təşkilatının fəaliyyətindən danışan R.Əliyev deyib ki, ərazi partiya təşkilatlarının sayı 52, üzvlərin sayı isə 8715 nəfərdir.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev isə çıxışında qeyd edib ki, Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası öz fəaliyyətində milli maraqlara əsaslanır. Yeni Azərbaycan Partiyasının arxada qoyduğu möhtəşəm 30 ilə nəzər yetirsək, qürur hissi ilə vurğulaya bilərik ki, YAP qüdrətli siyasi təşkilat olmaqla Azərbaycanın dövlətçilik maraqlarının qətiyyətli və etibarlı müdafiəçisidir. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçərək, bu gün Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı uğurlara imza atmaqdadır.

Çıxış edən Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli bildirib ki, tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün onun böyük ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi düzgün və məqsədyönlü siyasət ölkəmizin inkişafını şərtləndirən əsas amillərdəndir. "Azərbaycan xalqı xoşbəxtdir ki, bizim firavan gələcəyimizi layiqincə təmin edən liderimiz, cənab İlham Əliyev var", - deyə Əli Hüseynli vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, professor Elnur Sadıqov çıxış edərək deyib ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları Yeni Azərbaycan Partiyası tərəfindən sədaqətlə həyata keçirilməkdədir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü Zahid Xəlilov partiyanın yaranma tarixindən danışaraq o dövrdə xalqın ulu öndər Heydəer Əliyevə olan inamından bəhs edib.

Milli Məclisin deputatı İlham Məmmədov isə Yeni Azərbaycan Partiyasının bütün seçkilərdə qalib gəldiyini, bununla da qələbələr partiyası olduğunu təsdiqlədiyini bildirib. "Kür" qəzetinin baş redaktoru, "Heydər Əliyev prospekti 47" ərazi partiya təşkilatının sədri Əminə Əhmədova da çıxışında Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan danışıb. Tədbirin sonunda Yevlax şəhərinin ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilib.

# YAP Nəsimi rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

***Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının fəal gənclərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir.***





Oktyabrın 20-də YAP Nəsimi rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Partiya fəalları Heydər Əliyev Mərkəzini, burada fəaliyyət göstərən Heydər Əliyev Muzeyini ziyarət ediblər. Onlar Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.



# Bu gün YAP Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir!

## Gədəbəy rayonunda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib

**Oktyabrın 20-də Gədəbəy rayonunda Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Sonra tədbir iştirakçıları Gədəbəy rayon Şəhidlər Xiyabanını ziyarət edib, Şəhid məzarlarının və Şəhidlərin xatirə Kompleksinin önünə gül dəstələri düzüblər. Tədbir Heydər Əliyev Mərkəzində davam edib.**

Azərbaycanın Dövlət Himni səsləndirilib, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin və müstəqilliyimizin, ərazi bütövlüyümüzün təmin olunması yolunda canlarından keçən Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini özündə əks etdirən film nümayiş olunub.

Tədbirdə geniş məruzə ilə çıxış edən YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir. O bildirib ki, Azərbaycan xalqı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti tam dəstəkləyir. Rüstəm Nağıyev Yeni Azərbaycan Partiyasının Ümummilli Liderin ideyaları əsasında və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza atdığını, zəngin və şərəfli inkişaf yolu keçdiyini diqqətə çatdırıb.

Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ötən 30 ildə böyük inkişaf yolu keçib. Partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edir. Ötən illərin xronologiyasına diqqət yetirdikdə Heydər Əliyev ideyalarına söykənən partiyamızın gücləndiyinin, nəinki ölkənin, hətta Cənubi Qafqaz regionunun aparıcı siyasi təşkilatına çevrildiyinin şahidi oluruq.







YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında ümummilli lider Heydər Əliyevin siyasi kursunu müasir dövrümüzün tələbləri əsasında davam etdirən partiyamızın Sədri, Prezident İlham Əliyevin Azərbaycana Zəfər bəxş etmiş Müzəffər Ali Baş Komandan olduğunu bildirib. O, partiyamızın Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini söyləyib.

44 günlük Vətən müharibəsinin iştirakçısı, qazi Etibar Əliyev bildirib ki, tarixi Zəfərimiz harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını qürurlandırır: "Hər zaman Vətən üçün müsəlləh əsgər olmağımız bizim üçün ən böyük şərəf hissidir".

Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov Azərbaycanın bu gününü dünəni ilə müqayisə edərək Heydər Əliyev yolunun hər zaman ölkəmizə davamlı uğurlar qazandırdığını bildirib: "Artıq bu gün qalib Azərbaycandan danışırıq. Bu sevinci bizə yaşadan dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarıq". Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

---

**Oktyabrın 20-də Xızı şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram bildiriblər. Sonra tədbir iştirakçıları Xızı Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.**





# Xızıda Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib

Xızı rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçmişdir: "Azərbaycan xalqı əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti tam dəstəkləyir. Qazanılan nailiyyətlər Azərbaycanın milli gücünün artmasını şərtləndirir" ,- deyən Ayaz Quliyev YAP Xızı rayon təşkilatının fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi partiya təşkilatlarının sayı 37, üzvlərinin sayı 1717 nəfərə çatıb.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov bildirib ki, ölkədə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

YAP İdarə Heyətinin üzvü Elnarə Akimova bildirib ki, partiyamızın fəaliyyətinin əsasında Heydər Əliyev ideyaları dayanır. YAP-ın Azərbaycan xalqının çətin sınaqlarla üz-üzə qaldığı bir dövrdə yarandığını xatırladan Elnarə Akimova qeyd edib ki, həmin dövrdə Ulu Öndər Heydər Əliyev tarixi missiyanı öz üzərinə götürərək dövlətçiliyimizi məhv olmaqdan xilas etdi. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz, o cümlədən Yeni Azərbaycan Partiyası davamlı olaraq inkişaf edir. Ötən il keçirilən VII qurultay isə partiyamızın həyatında yeni mərhələnin əsasını qoyub.

Milli Məclisin deputatı Müşfiq Məmmədli də çıxışında YAP-ın ölkəmizin ictimai-siyasi həyatında müstəsna rolundan danışaraq partiyamızın alternativsiz siyasi qüvvə olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu gün sıralarında 800 minə yaxın insanı birləşdirən partiyamız öz gücünü xalqdan alır.

Tədbirdə, həmçinin YAP Xızı rayon təşkilatının fəal partiya üzvü Svetlana Rüstəmova və Rayon Ağsaqqallar Şurasının sədri, partiyanın fəal üzvü Arif Nağıyev çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan ətraflı bəhs ediblər. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib tərəqqi yoluna çıxardığı Azərbaycan hazırda Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə qalib və qüdrətli ölkəyə çevrilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.



# Payız turizminin üstünlükləri nədir?

**Səyahətlər etmək əsrlər öncə hippilər dövründə ortaya çıxmışdır. Sonra onun tərəfdarları dünyanı özləri üçün kəşf etməyə can atan və bunun üçün turist səfərlərinə rahatlığını qurban verməyə hazır olan gənclər idi. Bu gün bu səyahət yolu heç bir sosial və ya yaş məhdudiyyəti nəzərdə tutmur.**

Ümumiyyətlə nəzərdə tutduqda o biri fəsillərə nisbətən yay fəslində turizmə daha çox önəm verilir. Yay aylarından başqa payız, qış turizmindən də yararlananlar az deyil.MDB ölkələrinin payız fəsli üçün məşhur olan ən yaxşı 10 şəhəri təqdim olunmuşdur.

Minsk (Belarus)
Astana (Qazaxıstan)
Bakı (AZƏRBAYCAN)
İrəvan (Ermənistan)
Daşkənd (Özbəkistan)
Almatı (Qazaxıstan)
Bişkek (Qırğızıstan)
Kişinyov (Moldova)
Düşənbə (Tacikistan)
Aşqabad (Türkmənistan)

Ümumiyyətlə, payız mövsümündə tətilə çıxmağın üstün cəhətləri çoxdur. Birincisi və ən önəmlisi, payızın gəlişi ilə tətil bölgələrində, hotellərdə sakitlik başlanır. Bir tətilin vazkeçilməz atributları olan gəzinti, üzmə və kitab oxumaq daha xoş bir hala gəlir. Hoteldə yemək, çimərlikdə isə növbəsində durmaqdan bezənlər üçün payız tətili çox gözəl bir seçim olur. Yayda yer tapa bilmədiyimiz, rezervasiya belə etməkdə çətinlik çəkəcəyimiz məkanlara payızda rahatlıqla gedə bilirik. Bu, xüsusən də Türkiyənin istirahət bölgələri üçün keçərlidir.

Məsələn, Türkiyədə hotel qiymətləri əsasən iyul və avqust aylarında çox yüksək olur. Sentyabr, oktyabrda isə qiymətlər düşür. Bundan başqa, təyyarə biletləri də basabas yay mövsümündə olduğu qədər bahalı olmaya bilir. Həm şəhərlərarası yollar, həm də tətil bölgələrindəki nəqliyyat daha rahat olur. Şəhərlərarası yollar sakitləşir. Yaydakı sıxlığa görə gəzə bilmədiyiniz bir çox yerləri payızda rahatlıqla kəşf etmək mümkündür. Bütün bunlar payız tətilinin özəlliklərindən biridir. Payızda təbiət gözəlliyi axtaran şəxslər üçün Azərbaycan da ən əlverişli ölkələrdən biridir. Azərbaycanda sakit göllər, müalicəvi bulaqlar və dövlət tərəfindən qorunan meşələr var.

### Bəs azərbaycanlılar payızda hara və neçəyə gedirlər?

Hazırda yaxın istiqamətlərdən Dubaya və Misirə turlar üstünlük təşkil edir. Türkiyədə Antalya və Bodrum mövsümü sona çatsa da İstanbul üçün ən ideal zamandır. Bu fəsildə insanlar daha çox Türkiyə (İstanbul) istiqamətlərinə bilet alır. İnsanlar payızda daha çox qrup turlarına üstünlük verirlər. Macarıstan, Çexiya, Avstriya payızda üstünlük təşkil edən ölkələrdir.

Amma ölkədaxili turları da yaddan çıxarmaq olmaz. Quba, Qəbələ, Şəki turistlər tərəfindən daha çox səyahət edilən rayonlardır. Bu, həmin rayonların otellərindəki kampaniyalar və təkliflərlə bağlıdır. Eyni zamanda Qubada keçirilən "Alma festivalı", Göyçayda baş tutacaq "Nar festivalı" da turist axınına səbəb olur. Rayon turlarının qiymətləri 21 AZN-dən başlayır. Bu turlara səhər yeməyi, nəqliyyat, ekskursiyalar və əyləncəli oyunlar daxildir.

Payız aylarında təklif olunan turpaketlər üçün turizm agentlikləri indidən endirimlər edirlər. Yay aylarında 1500 manata təklif edilən qiymətlər hazırda yarıbayarı enir. Azərbaycanlılar payız aylarında daha çox müalicə məqsədi ilə səfər gerçəkləşdirir. Avropa ölkələrinə təşkil edilən turpaketlərin qiymətlərində özünü göstərən ucuzlaşma da aviabilet və otel xərclərinin azaldılması ilə bağlıdır.

"Smart" hotel menecment şirkətinin direktoru, "Skal Baku" turizm peşəkarları təşkilatının sədri Ceyhun Aşurov SİA-ya açıqlamasında payız turizminin üstünlüklərindən danışıb.

Hər bir ölkə ona bütün təqvim boyu turistlərin axınının təmin olunması isə maraqlıdır. Ancaq turistlərin çoxu öz səyahətlərini yay mövsümünə salırlar. Ümumiyyətlə dünyada səyahət edən insanların təxminən yarıya qədəri istirahət məqsədli səyahətlər edirlər. Ondan sonra sağlamlıq, müalicə və biznes məqsədli, qohum-əqraba ziyarətləri səyahətlərə yer verilir. Amma nəzərə almalıyıq ki, digər mövsümdə də ölkələr turistləri cəlb etmək yollarını düşünür. Payız mövsümü xüsusən çox isti olmayan, amma havaların da çox soyuq keçmədiyi bir dövrdür. Elə insanlar var ki, bu mövsümdən istifadə edərək qiymətlərin də daha uyğun və əlçatan olduğu dövrlərdə səyahətlərini edirlər. Bunlar xüsusən təqaüddə olan yaşlı insan qrupları, hərəkət məhdudiyyəti olan insanlardır ki onlar əsasən mövsümin aşağı olduğu, sıxlıq olmadığı dövrdəki səyahətlərə üstünlük verirlər.

Ümumi turistlərlə yanaşı bu qrup turistlərin də səyahət etmələri yay turizminə nisbətən az olur. Amma qiymətlər, qalma və seçim imkanları səyahət edə bilən insanlar üçün daha böyük, daha geniş seçim yaradır. Bəzi insanlar xüsusən həftə sonlarını seçirlər. Bizdə turizm infrastrukturunun daha geniş inkşaf etmiş bölgələri var ki bunlara - Qəbələ, Şəki, Şamaxı, Quba, Qusar zonaları aiddir. Bu bölgələrə turist axınının digər bir səbəbi də paytaxtdan o qədər də uzaq olmamasıdır. Son dövrlər cənub zonasında yol infrastrukturunun düzəlməsi ilə əlaqədar olaraq ora gedən turistlərimizin də sayında artım müşahidə edilmişdir. Eyni zamanda istirahət məqsədilə Naftalana da üstünlük verirlər.

Nəzərə alsaq ki Azərbaycan əhalisi ölkəyə gələn turistlərdən daha çox xaricə üz tuturlar. Azərbaycana 2019-cu ildə 3 milyona yaxın xarici vətəndaş turist olaraq gəlmişdirsə, ölkəmizdən 5 milyondan çox vətəndaşımız xaricə getmişdir. Bunların da təbii ki çoxu istirahət məqsədilədir. Bir faktı da nəzərə almaq lazımdır ki, dünyada baş vermiş hadisələrlə əlaqədar qiymətlərdə artım müşahidə olunmuşdur. İstər ərzaq, istər biletlərin qiymətlərində, istər də qalma qiymətlərində bahalaşma müşahidə olunmuş və ümumi səyahət xərci 50 faizə qədər artmışdır.

***Havar Şəfiyeva***



Mətanət MƏMMƏDOVA

# Naxçıvana yollar açılacaq, istəsəniz də, istəməsəniz də

**Bəzən insanları qınamaq düzgün deyil. Yaranan situasiya, şərait gətirib o həddə çıxarır ki, adam başını itirir, nə dediyini, necə hərəkət edəcəyini bilmir, yaddaşı pozulur, xəstələnir, psixoloji sarsıntı keçirir, depressiyaya düşür, ölüm sindromu yaşayır və sair. Vallah, mən Ermənistanın aparıcı siyasi rəhbərləri olan Paşinyanı bəzi hallarda qınamıram. Görünür yuxarıda sadaladıqlarımın əksəriyyətini ötən iki ildə ardıcıllıqla yaşadığından nə danışdığını bilmir. Çox güman ki, yaddaşı pozulmaqdadır. Axı bir nəfər nə qədər telefonlara əl atar, kömək istəyər, axı bir nəfər nə qədər həmin telefonların o başındakılar tərəfindən rədd edilər. Baş nə etsin, çatlayacaq, yaddaş silinəcək də...**

2020-ci ilin 44 günlük müharibəsindən üzü bu yana Ermənistanda baş verməyən hadisə qalmadı. Yerindən qalxan siyasətçiyə çevrildi, hər kəs bu problemin özünə sərf edəcək səviyyədə həll olunması təklifini verdi. Siyasətçilər bir yandan, tarixçilər bir yandan, nə bilim küçədə veyil-veyil gəzənlər hərə bir tərəfdən, iki ildir ağız deyəni qulaq eşitmir. Məğlubiyyəti də bu qalmaqalın üzərinə gələndə, vallah, adam qınamaqdan bir az çəkinmək istəyir.

Bu günlər Paşinyanın mətbuata belə bir açıqlamasını oxudum. Yuxarıda söylədiyim qənaətə də elə o zaman gəldim. Ermənistanın baş naziri Nikol Paşinyan özünün "Twitter" mikrobloqunda yazıb: "2020-ci il noyabrın 10-da qəbul edilən üçtərəfli bəyannamədə Ermənistan ərazisi ilə bağlı "dəhliz" haqqında hər hansı bir qeyd yoxdur... 10 noyabr tarixli üçtərəfli bəyanatda "dəhliz"dən bəhs edilirmi? Bəli. Bu Dağlıq Qarabağa gedən yeganə Laçın dəhlizidir".

O, başqa bir yazısında bunları deyib: "Ermənistan Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında yeni yolların tikintisi ilə bağlı hər hansı birtərəfli öhdəlik götürürmü? Yox. Ermənistanla Azərbaycan arasında razılaşma ilə bu baş verə bilərmi? Bəli! Ermənistan öz qanunvericiliyinə uyğun olaraq bunu etməyə hazırdır. Azərbaycanın müsbət cavabı lazımdır".

Qeyd olunur ki, Paşinyan bir az da irəli gedərək növbəti həyasız bəyanat səsləndirib. Onun iddiasına görə, tvit və reaksiya sübut edir ki, heç kim Ermənistanı öhdəliklərindən yayınmaqda günahlandıra bilməz. "Bir daha deyirəm ki, biz öhdəliklərimizi yerinə yetirmək və regionun çoxşaxəli blokadası nəticəsində yaranan imkanlardan istifadə etmək üçün 3 nəzarət-buraxılış məntəqəsi açmağa hazırıq".

Paşınyanı anladığım, yaddaşında bəzi silinmələrin olduğunu nəzərə alıb 2020-ci ilin 10 noyabrında, Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan Respublikası arasında imzalanan üçtərəfli Bəyanatın 9-cu bəndini xatırlatmaq istəyirəm. Ölkə Prezidentinin xalqa müraciətindən: "Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni bu nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir".

Paşinyan açıqlamasında "Ermənistan ərazisi" deyə bir söz birləşməsi vurğulayır. Lakin ona bir sualım var: hansı Ermənistan ərazisi, Ermənistan torpaqlarından bəhs edirsən? Yaddaş silinə bilər, bəli. Lakin xəritələr var. Bir zəhmət, onlara müraciət et. Yaddaşın dərhal özünə qayıdacaq...

Naxçıvana yollar açılacaq, kimin istəyib, istəməməsindən asılı olmayaraq. Yaşayaq, görək. Hər kəs də üzərinə götürdüyü öhdəliyin arxasında durmağa borcludur...

# “Zəngilan Hava Limanının istifadəyə tam hazır olması...”

**“Azərbaycan Prezidenti cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına son səfərləri, açılışlarda və təməlyoqma mərasimlərdində iştirakları işğaldan azad edilmiş ərazilərdə aparılan sürətli bərpa prosesinin növbəti mərhələsidir”. Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.**

Onun sözlərinə görə, Azərbaycan dövləti tarixi Qələbədən ötən iki il ərazində azad edilmiş ərazilərdə sıfırdan nəhəng infrastruktur layihələri reallaşdırır: ”Bu proses həm Qarabağın və Şərqi Zəngəzuru ölkəmizin ən müasir bölgəsinə çevirməklə yanaşı həm iqtisadi potensialını yüksəldir, həm də keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışını yaxınlaşdırır. Azərbaycan Prezidentinin müəyyən etdiyi bu qətiyyətli siyasət ölkəmizin mahiyyətini bütün dünyaya göstərir. İşğalçı Ermənistaının 30 ilə yaxın yerlə yeksan etdiyi tarixi torpaqlarımızın belə sürətlə bərpası, sosial obyektlərin tikilməsi, kommunikasiyaların bərpası Azərbaycan dövlətinin əsas hədəflərindəndir. Ölkə rəhbərliyinin prosesi mütəmadi olaraq diqqətdə və şəxsi nəzarətdə saxlaması deməyə əsas verir ki, bərpa işləri bundan sonra da ciddi şəkildə davam etdiriləcək. Xüsusilə də Prezident və birinci xanımın Ağalı sakinləri ilə görüşündə müşahidə olunan səmimi ortam, insanların üzlərindəki xoş təbəssüm, qurub yaratmaq əzmi həmişə olduğu kimi Azərbaycan ictimaiyyətində məmnunluqla qarşılanır.

**Siyasi ekspert şərh etdi**



Biz sübut edirik ki, tarixi torpaqlarımızın sahibləriyik və bu ərazilərdə əbədi olacağıq. Bu gün Zəngilanda Beynəlxalq Hava Limanının açılışını da məxsusi vurğulamaq lazımdır. Azərbaycan cəmi iki il ərazində azad edilmiş ərazilərdə iki beynəlxalq hava limanı inşa edib. 1 ilə yaxın müddətdə tikilən Füzuli Hava Limanından sonra Zəngilan Hava Limanının da istifadəyə tam hazır olması şübhəsiz ki, dövlətimizin iqtisadi imkanlarının bariz göstəricisidir. Bu kimi layihələrin reallaşması Qarabağ və Şərqi Zəngəzurun Cənubi Qafqaza inteqrasiyasını tezləşdirir, region ölkələirinin iqtisadi inkişafına mühüm töhvələr verir. Əminliklə demək olar ki, Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə uğurla irəliləyəcək və bölgənin lideri kimi daha da önə çıxacaq”.

*Abutel İlhamqızı*




# “Ermənistanın anası porno ulduzu Kim Kardaşyandır”

**“Uzun illərdir fransızlar ermənilərə həm siyasi, həm də iqtisadi cəhətdən kömək edirlər”. Bu fikirləri SİA-ya açıqlamasında siyasi ekspert Elşad Həsənov bildirib. Onun sözlərinə görə, Fransa prezidentlərinin əksəriyyəti seçki zamanı seçicilərinə kömək edəcəklərini bildirirlər: ”Bu ondan irəli gəlir ki, Fransada böyük erməni diasporu var. Ancaq Fransanın dünya şöhrətli prezidentləri də olub ki, onlar siyasətdə beynəlxalq hüquq normalarını qoruyublar. Ancaq Makronun son bəyanatı özünü gülünc vəziyyətə qoydu.**



Oktyabrın 6-da Praqada keçirilən üçtərəfli görüşə Makron da özünü saldı və dördtərəfli görüş baş tutdu. Bu görüşdə də beynəlxalq hüquq normalarını qorumaqla Paşinyan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdı. Amma aradan 2 gün keçdikdən sonra Makron televiziya kanalına sərsəm bir bəyanat verdi. Ermənistanın uduzmasında Rusiyanı günahkar saydı. Guya Rusiya Azərbaycana kömək edib. Azərbaycanı təcavüzkar olması ilə bağlı ittiham etdi. Makronun siyasi savadının bəsit olduğu üzə çıxdı.

Makron bəyanat verib ki, Qarabağ Ermənistandan ayrılıb və Azərbaycan onu qəsb edib. Bu çıxışdan sonra Fransanın politoloqları, siyasi nümayəndələri Makronu qınadılar, Qarabağ Azərbaycanın torpaqlarıdır, onun əzəli torpağıdır. Makronun bu sərsəm bəyanatını Rusiya prezidenti Vladimir Putin həqiqətlərə əsaslanmayan bir bəyanat olduğunu bildirdi. Azərbaycan Prezidenti isə bildirdi ki, Makronun küçə leksikonundan olan çıxışı qəbuledilməzdir.

Makronun bu çıxışlarının bir neçə səbəbi var. Makronun ümumiyyətlə türklərə qarşı antipatiyası var. Türk Birliyinin yaranması onda çox böyük narahatlığa səbəb olur. Digər tərəfdən Türkiyə Prezidentinin son dövrlər dünya miqyasında apardığı siyasət onu qıcıqlandırır. Makron Rusiya-Ukrayna müharibəsində vasitəçilik etməyə çalışsa da onun sözünü heç kəs dinləmədi. Ukrayna taxılının bazara çıxarılmasından sonra mətbuatda Rəcəb Tayyib Ərdoğana Nobel sülh mükafatının verilməsi ilə bağlı yazılar çıxdı. Bundan narahat olan Makron nə edəcəyini bilmir. Makron bəyanatda bildirib ki, Ermənistan bizim bacımızdır. Mən bu fikirlə tamamilə razıyam. Ermənistan və Fransa hər zaman siyasi bir məsələdə qadınlarını qabağa verirlər. Təsəvvür edin ki, Ermənistanın anası porno ulduzu Kim Kardaşyandır. Bunların mənəviyyatı, namusu, qeyrəti bu cürdür. Makron bu bəyanatlarından sonra Azərbaycan-Ermənistan münasibətlərinə daxil ola bilməz. Bu heç vaxt olmayacaq. Makron bundan sonra bizim üçün də, digər dövlətlər üçün də canlı meyiddir”.

*Abutel İlhamqızı*



**Elçin Bayramlı**

# “Yalansa, fransuzski ilan vursun səni"

**Fransanın Azərbaycandakı səfiri Zaxari Qrosun ”Praqa ruhu”nun yaşaması, Fransa prezidenti Emmanuel Makronun danışıqlarda iştirakını və əldə olunmuş nəticələri az qala Fransanın ”xüsusi xidməti” kimi təqdim etməsini oxuyanda heyrətə gəldim. Əcəba, bu cəfəngiyyatın arxasında hansı səbəblər və məqsədlər dayanır?**

Səfirin imkanı olsaydı, prosesdə hansısa ”Paris ruhu”nun mövcudluğunu da iddia edərdi. Amma hansı ”xidmət”, hansı ”Paris ruhu”ndan söhbət gedə bilər? Makron ermənipərəst bəyanatları ilə hətta Brüssel prosesinə və ”Praqa ruhu”na da ağır zərbə vurdu və uzun müddət ərzində görülmüş işlərin əhəmiyyətini heçə endirdi. Bu gün Fransa ancaq ”Ermənistan ruhu” və ”dağıdıcılıq ruhu” haqqında danışa bilər.

Nəinki indiki vaxtda və müharibə vaxtı, ondan qabaq da Fransa tam olaraq Ermənistanın əsas havadarı kimi çıxış edib. Hələ 1-ci Qarabağ müharibəsi vaxtı Fransanın Ermənistana təkcə siyasi deyil, həm də hərbi, iqtisadi, maliyyə yardımı etməsi təəccüblü deyil.

Paris 30 ilə yaxın sürən danışıqlar prosesində ermənilərin xeyrinə olan paket həll variantını dəstəkləyib. Müharibə dövründə var gücü ilə Ermənistanı dəstəkləyib və Azərbaycan əleyhinə mübarizə aparıb. Özü də sırf münaqişənin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biri olduğu halda.

Lakin Fransanın dəstəyinə baxmayaraq Ermənistan məğlub oldu və Azərbaycan öz qanuni ərazilərini azad etdi. İndi Fransanın və bəzi digər Qərb dövlətlərinin marağı Azərbaycandan mümkün qədər çox güzəşt qoparmaqdan ibarətdir. Əgər həqiqətən də regionda sülhü istəyirlərsə, onda açıq-aşkar tərəflərdən birinin tərəfini tutmamalı, ən azı neytrallığını qorumalı və ədalətli vasitəçilik etməli idi. Lakin biz bunu görmədik.

İndi bir səfirin çıxıb əldə olunmuş hansısa ”nailiyyət”i Fransanın adına yazmaq cəhdi uğursuzdur. O nailiyyət ki, yalnız kağız üzərində qalıb və Ermənistan heç birinə əməl etmir. Üstəlik, Ermənistan ərazisinə, Azərbaycanla sərhəddə xüsusi missiya göndərirlər ki, birdən biz tərəfdən onlara cavab atəşi açılar tez beynəlxalq hay-həşir salsınlar ki, qoymayın, erməniləri qırırlar.

Əgər siz bütün günü bar-bar bağırdığınız beynəlxalq hüquqa, ədalətə sadiqsinizsə onda zəhmət olmasa, Azərbaycanın beynəlxalq hüquqlar tanınmış ərazilərindən erməni silahlılarının rədd olmasını tələb edin, Ermənistanın sərhəddə təxribatlar törədərək delimitasiyaya mane olmasını qınayın, əgər iqtisadi əməkdaşlıqda maraqlısınızsa, onda Ermənistandan Zəngəzur dəhlizini açmağı tələb edin, necə ki, biz Laçın dəhlizini onlar üçün açıq saxlamışıq. Əgər ədalətlisinizsə Ermənistanın 30 ildə törətdiyi soyqırımı tənqid edin, ərazilərimizdə vurduğu dəyəri yüz milyardla ölçülən zərəri kompensasiya etməsini tələb edin.

Heç birini etmirsiniz, etməzsiniz. Deməli, sizin məqsədiniz sülh və əməkdaşlıq deyil, tamam başqadır. Bu halda sizdən bizə heç bir fayda gəlməz, heç bir nailiyyətdən söhbət belə gedə bilməz.

Müsyö, Fransanın dünya ölkələrində törətdiyi milyonluq soyqırımları, onlarla ölkəni işğal halını, 20-yə yaxın ölkənin sərvətlərini talama faktlarını, dünya siyasi arenasında, o cümlədən BMT-dəki daimi riyakar mövqeyini də nəzərə alaraq, sizə bir məsləhətim var- Siz bu oyunda ədalətli arbitr ola bilməzsiniz, çəkilin kənara, biz öz problemimizi özümüz həll edirik. Heç kimin məsləhətinə, nailiyyətinə ehtiyacımız yoxdur. Amma nə qədər zaman keçsə də, Fransanın xalqımız və dövlətimiz qarşısında bu ”xidmətləri” unudulmayacaq. Malheureusement müsyö...

# “Sülh üçün ilk növbədə sərhədlərin delimitasiyası vacibdir”

## Rusiyalı ekspert: “Regionda sülhün əldə olunması Ermənistanın Avropa ilə rəqsindən daha çox əhəmiyyətlidir”



Postsovet məkanı üzrə tanınmış rusiyalı ekspert, publisist və ictimai xadim Dmitri Verxoturov ”Caliber” analitik mərkəzinə müsahibəsində regionumuzda baş verən hadisələr və gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İran ordusunun Azərbaycanla sərhəddə keçirdiyi təlimləri necə şərh edərdiniz?***

- Mən bunu dəfələrlə demişəm: Ermənistan İran üçün ticarət pəncərəsidir və Tehran sanksiyalara məruz qaldığından və onunla az ölkə ticarət etdiyi üçün bu problem orada həm də Ermənistan ərazisindən istifadə etməklə həll olunur. Göründüyü kimi, İran Ermənistan ərazisindən həm mal, həm də pul nəql edir. Hesab edirəm ki, eyni səbəbdən Ermənistanla sərhəd İran üçün strateji əhəmiyyət kəsb edir və Tehran bu ticarət dəhlizini bağlamaq istəməzdi.

***- Bəs Brüsselin təmsil etdiyi avropalı vasitəçilərin iştirakı ilə Ermənistan-Azərbaycan münasibətlərinin hazırkı normallaşması prosesini necə qiymətləndirirsiniz?***

- Açığını desəm, danışıqlar prosesində heç bir irəliləyiş görmürəm. Görünən odur ki, Paşinyan çox da aydın olmayan məqsədləri və qeyri-müəyyən nəticələri olan qəribə siyasi oyun aparır ki, bu da hətta Ermənistanın özündə də çaşqınlıq və qınaq doğurur. Ona görə də, çətin ki, avropalı vasitəçilərin iştirakı ilə hər hansı sazişi danışıqlar prosesində irəliləyiş adlandırmaq olar. Əslində, xəritələrdə sərhədlərin delimitasiyası və cızılması və mübahisələrin sülh yolu ilə həlli üçün komissiya yaradılmalı idi. Bu halda müəyyən irəliləyişdən danışmaq olar. Və bu gün, məncə, müsbət tendensiyalar görünmür.

***- Bu yaxınlarda Fransa prezidenti Rusiya Federasiyasının Cənubi Qafqazdakı siyasətindən, xüsusən də Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsində Rusiya Federasiyasının vasitəçilik rolundan çox xoşagəlməz tərzdə danışdı. Parisin bu hücumunu necə şərh edərdiniz?***

- Makronun üslubundan deyə bildiyimə görə, o, hər zaman Cənubi Qafqazda münaqişəni qızışdırmağa və bununla Rusiyaya əlavə problem yaratmağa, onu Ukrayna problemindən yayındırmaq ümidi ilə çalışır. Bu hesablamanın özünü doğrultmayacağı aydındır, lakin belə bir cəhd baş verir. Digər bir məsələ odur ki, Rusiya üçün Cənubi Qafqazda sabitliyin qorunması vacibdir və bunun üçün Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə həll olunması üçün əlindən gələni edir. Rusiyanın marağı ondan ibarətdir ki, qonşu dövlətlər vahid coğrafi məkanda dinc yanaşı yaşasınlar.

Eyni kontekstdə Türkiyə faktorunu da qeyd edərdim. Mövcud vəziyyət Türkiyəyə bir çox münaqişələrdə vasitəçiyə çevrilmiş nüfuzlu bir ölkə olmaq üçün tarixi şans verib. Və güman edirəm ki, hətta Praqada Ərdoğanla Paşinyan arasında ünsiyyət imkanının olması faktında da Türkiyənin rolu görünür. Aydındır ki, Ankara da Rusiya kimi bu münaqişəni həll etməyə çalışır və onun vasitəçilik səyləri də Bakı ilə İrəvan arasında danışıqlarda faydalı ola bilər.

***- Son zamanlar Fransa siyasi isteblişmenti anti-Azərbaycan kampaniyasını nəzərəçarpacaq dərəcədə gücləndirib. Bu proseslərin arxasında nə dayanır?***

- Avropalı siyasətçilərin indiki məntiqini anlamaq çətindir, çünki onlar çox vaxt öz maraqlarının ziyanına hərəkət edirlər. Belə olan halda Fransa Azərbaycanı anti-Azərbaycan qətnamələri ilə özündən uzaqlaşdırmamalı idi. Güman edirəm ki, bu yolla Parisdə Azərbaycana təzyiq göstərməyə çalışırlar ki, Ermənistana qarşı daha itaətkar olsunlar.

***-Ermənistan hansı məqsədlə Aİ missiyasının Azərbaycanla sərhəddə yerləşdirilməsi təşəbbüsü ilə çıxış edib?***

- İnanıram ki, Nikol Paşinyan, Azərbaycanla sərhəddə yeri gəlmişkən, artıq iflasa uğramış Aİ missiyasının yerləşdirilməsi ideyasını irəli sürməklə Avropa İttifaqına xidmət etmək istəyib və bundan özü üçün nəsə alacağını gözləyir. Düşünmürəm ki, avropalı müşahidəçilər hansısa yolla münaqişə vəziyyətini dəyişsinlər, birincisi, onlara inam yoxdur, ikincisi, onların bu problemi həll etmək səlahiyyəti yoxdur.

Digər tərəfdən, Ermənistan-Azərbaycan sərhədi ilə bağlı məsələlər Bakı və İrəvanın daxili işləridir. Bəli, Rusiya və Türkiyəni vasitəçi kimi- birlikdə və ya ayrı-ayrılıqda dəvət edə bilərlər, lakin Azərbaycan-Ermənistan sərhədində avropalı müşahidəçilərin olması, fikrimcə, danışıqlar prosesinə heç bir irəliləyiş gətirməyəcək.

***- Cavablarınıza əsasən, yaxın gələcəkdə sülh müqaviləsinin imzalanması ehtimalı həddən artıq azdır?***

- Mən hesab etmirəm ki, Ermənistanla Azərbaycan arasında yaxın gələcəkdə sülh müqaviləsinin imzalanacağını gözləmək lazım deyil, amma münaqişə uzanır, orada çoxlu iştirakçılar, deməli, bir çox maraqlar var. Müvafiq olaraq, sülh yolu ilə həll prosesi də uzun çəkəcək. İndiki mərhələdə bütün mübahisəli məsələlərin həlli üçün ilk növbədə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası vacibdir. Bu, Ermənistanın Makron və Aİ ilə rəqs etməsindən daha vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” çərçivəsində hazırlanıb.







SON SƏHİFƏ
Səs
21 oktyabr
2022-ci il

# Qışda immuniteti gücləndirmək üçün bu qidalara üstünlük verin!

**“Havalar soyuduqca insanlar, ilk növbədə, havaya uyğun geyinməlidirlər. Əksər halda dəyişkən hava şəraiti ilə əlaqədar olaraq orqanizm normal temperaturunu saxlaya bilmir. Bundan ən çox zərər çəkənlər isə immun sistemi aşağı olan insanlardır”. Bu fikirləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.**


Mütəxəssis şərh etdi

Onun sözlərinə görə, immun sisteminin güclü olması üçün ilk növbədə sağlam qidalanmamıza diqqət etməliyik: ”Payız fəslində mövsümi meyvə və tərəvəzlərdən istifadə etməliyik. Hansı ki, onların tərkibi vitaminlərlə zəngin olur. Alma, nar, heyva və portağalı buna misal çəkə bilərik. bunlardan mütəmadi olaraq istifadə etdiyimizdə orqanizmimiz vitamin və mineral balansını qoruyur və çatışmazlıqları da tamamlayır. Daha sonra səhər yeməyimiz çox önəmlidir. Qeyd edim ki, səhər yeməyi vaxtında qəbul edildikdə orqanizmimiz həm enerjili olur, həm də həzm sistemi yaxşı fəaliyyət göstərir. Çalışmaq lazımdır ki, süd və süd məhsulları, yumurta, bal, zeytun, bəhməz, yulaf əzməsi kimi qidalardan istifadə etməliyik. Bunları menyular şəklində hər gün istifadə etməliyik. Bununla yanaşı, sağlam bədən çəkimizə də diqqət etməliyik. Yəni artıq çəki və normadan aşağı olan çəki də immun sisteminin aşağı olmasına gətirib çıxarır.



Mütləq şəkildə yuxu rejiminə diqqət etməliyik. Gecə 11-də artıq yatmaq lazımdır. Ölkəmizdə insanların çoxu yuxu rejimini pozduğu üçün immuniteti aşağı olur. Bununla da onlar gün boyu yorğun, əzgin, eyni zamanda da depressiyaya meyilli olurlar.

Temperatur aşağı düşdükcə sanki insanların suya olan tələbatı azalır. Daha çox isti içkilərə, çaya üstünlük verirlər. Günün birinci yarısında çay içmək olar. Lakin günün ikinci yarısında müxtəlif bitki çaylarına da üstünlük vermək olar. Qalan zamanlarda isə su ehtiyacımızı təmin etməliyik.

Həftədə 2 dəfə balıq yeməyi unutmamalıyıq. Çünki balıq tərkibinə görə zəngindir və çox faydalıdır. İmmun sistemimizin gücləndirilməsi üçün mərkəzi beyin sistemimizin yaxşı çalışması üçün Omega3-lə və bir çox minerallarla zəngindir. Ona görə də mütəmadi olaraq balıqdan, eləcə də qırmızı ət və toyuq məhsullarından da istifadə etməliyik”.

*Abutel İlhamqızı*

## BİLİRSİNİZMİ?

Dünya yaranandan bu günə qədərki hər şeyi 24 saata sığdırmağa çalışsaq, insanlar bu vaxtın sadəcə 1 dəqiqə 17 saniyəsini təşkil edər.

***

Helikoprin adlı köpək balığının 270 milyon il öncə yaşadığı düşünülür. Onu qəribə edən özəlliyi isə mişar dişli dairəvi çənəsi olub.

***

Çində ingiliscə danışanların sayı Amerikadakılardan daha çoxdur.

***

Çox məcbur qalmadıqca qar yeməyin. Çünki onu əritmək üçün bədəndə olduqca çox enerji sərf edilir.

***

İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.

# Bakıda və bölgələrdə insan alverinə qarşı hansı işlər görülür?

“İnsan alveri problemi dünya miqyasında hər bir cəmiyyəti narahat etdiyi kimi, bizim də ölkəmizdə narahatlıqla qarşılanır. Ölkəmizdə insan alverinin qarşısının alınması, cinayət hərəkətlərinə yol verən şəxslərin cəzalandırılması və zərərçəkmiş şəxslərin sosial-psixoloji reabilitasiyası istiqamətində DİN-nin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi, digər dövlət qurumları hal-hazırda çox mühüm işlər həyata keçirilməkdədir”. Bu sözləri SİA-nın sorğusuna cavab olaraq ”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova deyib.

Onun sözlərinə görə, bu sahədə həyata keçirilən tədbirlərdə QHT-lərin də rolu böyükdür: ”Rəhbəri olduğum ”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyi İnsan Alverinə Qarşı Mübarizə üzrə QHT Koalisiyasının üzvü olaraq insan alverindən zərərçəkmiş və zərərçəkməsi ehtimal olunan qurbanlara illərdir ki, hüquqi, psixoloji yardımların göstərilməsi, sosial reabilitasiyasının həyata keçirilməsi, əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi istiqamətdə çoxlu sayda layihələr həyata keçirir.



Hər il olduğu kimi bu il də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə ”Təhlükəsiz səyahət” ölkəmizə daxil olan və xaricə səfər edən şəxslərin insan alveri təhlükəsi barədə məlumatlandırılması layihəsinin icra planına uyğun olaraq Bakı Beynəlxalq Hava Limanında, Gəncə şəhərində və Qəbələ rayonunda maarifləndirmə tədbirini həyata keçirir”.

*Ayşən Vəli*

# Əhaliyə xəbərdarlıq: güclü külək əsəcək, dağlarda qar yağacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, oktyabrın 21-dən başlayaraq ayın 23-dək ölkə ərazisində qeyri-sabit hava şəraitinin müşahidə olunacağı, ayrı-ayrı yerlərdə güclü külək əsəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı, bir sıra ərazilərdə leysan xarakterli intensiv olacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi, dağlıq rayonlarda qar yağacağı proqnozlaşdırılır.



SİA xəbər verir ki, qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır. Belə ki, gözlənilən güclü küləklə əlaqədar yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik direyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur.

# Kompüteri ona vermədiyi üçün 14 yaşlı əkiz qardaşını bıçaqladı!

**Moskvanın şimalında 14 yaşlı məktəbli əkiz qardaşını ona kompüter oynamağa icazə vermədiyi üçün onu boynundan bıçaqlayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, hadisə oktyabrın 18-də baş verib. Qardaşlar evdə nənələri ilə birlikdə olublar. Onlardan biri mətbəxdə oturub kompüter oyunu oynayıb, digəri ona kompüter verməyi xahiş edib. Oynayan yeniyetmə qardaşını vurmaqla hədələyib, qardaş isə cavab olaraq mətbəx bıçağını götürüb. Münaqişə nəticəsində bıçaq onlardan birinin boynuna dəyib. Nənə təcili yardım çağırıb, uşaq xəstəxanaya yerləşdirilib. Həkimlər ona boyun nahiyəsində bıçaq yarası diaqnozu qoyublar və hazırda o, həkim nəzarətindədir. Aydınlaşdırılıb ki, qardaşlar arasında münasibətlər bir il bundan əvvəldən korlanmağa başlayıb.**



*Ayşən Vəli*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3600